# Bəşəri faciə sənətkarların gözü ilə

Naxçıvan Dövlət Universitetində incəsənət fakültəsinin Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı ilə birgə Xocalı soyqırımının 24-cü ildönümünə həsr edilmiş tədbir keçirilib. Tədbirdən öncə ali məktəbin təsviri incəsənət müəllimliyi ixtisasının müəllim və tələbələrinin əl işlərindən ibarət Xocalı soyqırımına həsr olunmuş rəsm sərgisinin açılışı olub. Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov əsrlər boyu xalqın başına gətirilən soyqırım və qətliamların, Azərbaycan xalqının öz azadlığı və ərazi bütövlüyü uğrunda apardığı şərəfli mübarizənin, qəhrəmanlıq tariximizin təsviri sənətdə inikas olunmasının əhəmiyyətindən danışıb. Qeyd olunub ki, sərgidə müxtəlif üslub və janrlarda nümayiş olunacaq əsərlər müəlliflərin milli qürur, vətənpərvərlik hisslərindən yoğrulmuş, gələcək nəslə Vətən sevgisi, tarixi keçmişimizə, şəhidlərimizə hörmət və ehtiram aşılayan dəyərli sənət nümunələridir. Sonra sərgi ilə tanışlıq olub. Müəllimlərdən Fəridə Əhmədova və Şəmsiyyə Zalovanın, tələbələrdən Aynur İmanova, Zeynəb Məmmədova, Nuray Cavadova, Tünzalə Orucova, Güllü Məmmədova, Araz Həsənzadə və digərlərinin karikatura, plakat, kompozisiya janrlarında çəkdikləri əsərlərdə Vətən sevgisi, düşmənə nifrət və qisas hissi, müharibə və qətliama qarşı kəskin etiraz öz əksini tapmışdır.



Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirdə çıxış edərək faciənin köklü səbəbləri, siyasi məqsədi və günahkarları, bu soyqırımının beynəlxalq miqyasda tanıdılması məqsədi ilə görülən işlər haqqında danışıb. Qeyd olunub ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələrinin keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücumu nəticəsində qədim Xocalı yerlə-yeksan edilmiş, 613 nəfər yerli əhali öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək zülm, təhqir və həqarətlərə məruz qalmışlar. Bu müdhiş faciənin tarixdən və yaddaşlardan silinməməsi üçün gənclik Vətənə, azərbaycançılıq ideologiyasına sədaqət ruhunda tərbiyə edilməlidir.

Universitetin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının məsul katibi Günay Məmmədova qeyd edib ki, bəşər tarixində misli görünməmiş dəhşətli faciə olan Xocalı soyqırımına bütün ziyalılar, sənət adamları biganə qala bilməmiş, görkəmli Azərbaycan bəstəkarları, tanınmış fransız bəstəkarı Pyer Tiloy bu mövzuda simfonik və vokal - instrumental musiqi janrlarında irihəcmli əsərlər yaratmışlar. Bəstəkar Kamal Əhmədovun 2013-cü ildə böyük simfonik orkestr üçün yazdığı "Xocalı" simfoniyası birhissəli olmasına baxmayaraq, silsiləli simfoniya janrının səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir.

Simfoniyanın müəllifi, bəstəkarlıq kafedrasının müdiri, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Kamal Əhmədov əsərin yaranma tarixi, spesifik xüsusiyyətləri haqqında məlumat verib.

Kompüter səsləndirilməsi, müxtəlif tarixi kadrların, mövzu ilə bağlı bədii filmlərdən seçilən fraqmentlərin müşayiəti ilə təqdim olunan simfoniya faciəni bütün dəhşətləri, xronikası ilə yanaşı, müstəqil Azərbaycanın hərbi qüdrətini, iradə əzmini, yenilməzliyini də özündə təcəssüm etdirir. Gərgin dramatik anlar yaşadan, vətənpərvərlik, düşmənə nifrət və intiqam hissləri üzərində köklənmiş simfoniya maraqla qarşılanıb.

**Mehriban SULTAN,**
*NDU-nun Mətbuat şöbəsinin müdiri*